

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 181 (23.343)

*27 sentyabr 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Beynəlxalq Maliyyə Korporasiyasının iqtisadiyyat və özəl sektorun inkişafı üzrə vitse-prezidenti Hans Piter Lankesin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev deyib: "Mənə verilən məlumata görə, siz Azərbaycan Respublikası Dövlət Neft Fondunun 20 illik yubileyinə həsr olunmuş konfransda iştirak edirsiniz. Bu, bizim əməkdaşlığımızın yaxşı göstəricisidir. Bildiyiniz kimi, ötən 20 il ərzində bizim Neft Fondumuz Azərbaycanın inkişafı üçün çox vacib vasitə rolunu oynayıb. Bununla yanaşı, Fond dünyanın ən şəffaf suveren fondlarından biri kimi BMT tərəfindən mükafata layiq görülüb..."

Beynəlxalq Maliyyə Korporasiyasının vitse-prezidenti Hans Piter Lankes bildirib ki, Azərbaycan Respublikası Dövlət Neft Fondu bizim uzunmüddətli yaxın tərəfdaşımızdır. Zənnimizcə, bu Fond peşəkarcasına idarə olunan fondlardan biridir və biz bu əlaqələrimizə böyük önəm veririk.

Görüşdə Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycanla əməkdaşlığının perspektivləri, iqtisadiyyatın şaxələndirilməsi, şəhər və kənd yerlərində yeni iş yerlərinin yaradılması, biznes mühitində qazanılmış uğurların daha da möhkəmləndirilməsi, özəl sektora birbaşa xarici investisiyaların cəlb olunması məsələləri müzakirə edildi.

## Əməkhaqları artımla ödənilir

Bu il ölkə Prezidentinin müvafiq sərəncamlarına əsasən minimum əməkhaqqı, bütün növ pensiyalar və dövlət strukturlarında çalışan işçilərin vəzifə maaşları artırılmışdır. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən də əməkhaqlarının artırılması ilə bağlı sərəncamlar imzalanmışdır.

Ölkə Prezidentinin və Ali Məclis Sədrinin müvafiq sərəncamlarından irəli gələn vəzifələrin icrası Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi tərəfindən diqqətdə saxlanılmış, əməkhaqlarının artımla ödənilməsi üçün vaxtında operativ tədbirlər görülmüşdür. Belə ki, muxtar respublika üzrə tarifləşmələr yenilənmiş, müəssisə və təşkilatların ştat cədvəllərinin layihələri hazırlanaraq aidiyyəti üzrə göndərilmişdir.

Hazırda bu sahədə bütün zəruri işlər başa çatdırılmış, muxtar respublikada əməkhaqlarının sentyabr ayından başlayaraq artımlarla ödənilməsinə nail olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti**

## Yaşayış binasında dəmir-beton işləri tamamlanıb

Ordubad şəhərinin mərkəzində zirzəmi ilə birlikdə 8 mərtəbəli yaşayış binası inşa olunur. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ordubad Rayon İdarəsi tərəfindən ucaldılan bina 28 mənzildən ibarət olacaq.



Bu ilin yazından tikintisinə başlanılan obyektdə dəmir-beton işləri, fasad divarlarının hörülməsi və çardağın vurulması başa çatdırılıb. Hazırda binanın daxili divarları və arakəsmələri hörülür.

Yaşayış binası istifadəyə verildikdən sonra tikilinin zirzəmisində xidmət sahələri də yaradılacaq, bərbərxana, gözəllik salonu, dərzi, ərzaq və sənaye malları mağazaları fəaliyyət göstərəcək.

Obyektin ətrafında isə abadlıq işləri aparılmaqla işıqlandırma və suvarma sistemləri qurulacaq, gülkarlıqlar salınacaq.

**Abbas SEYİD**

*Muxtar respublikamızda yaradılmış soyuducu anbar təsərrüfatı payız-qış aylarında əhali istehlakında mühüm paya malik olan yerli meyvə və tərəvəz məhsullarının münasib qiymətlərlə satışa çıxarılmasına imkan verir.*

## Soyuducu anbarlarda meyvə-tərəvəz ehtiyatı yaradılır




Bundan əlavə, soyuducu anbarlar, əsasən, diyarımızda yetişdirilən meyvə-tərəvəz hesabına doldurulduğundan aqrar sahənin inkişafına, istehsalçıların öz işini genişləndirməsinə stimul yaradır. Belə ki, soyuducu anbarlar muxtar respublikamızın, demək olar ki, bütün rayonlarında olduğundan bu, meyvə-tərəvəz məhsullarının daşıma xərclərinin və müvafiq olaraq satış qiymətlərinin də aşağı salınmasına təsir edir.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə muxtar respublikadakı soyuducu anbarlara meyvə-tərəvəz tədarükü davam etdirilir. Belə ki, hazırda Naxçıvan şəhərində, Şərur, Ordubad, Kəngərli, Şahbuz və Sədərək rayonlarındakı soyuducu anbarlara meyvə-tərəvəz məhsulları təhvil verilir. Ümumi tutumu 15 min 945 ton olan 38 soyuducu anbara indiyədək 4 min 81,5 ton, o cümlədən 3 min 967,7 ton kartof, 55,6 ton soğan, 52,8 ton alma və 5,5 ton kələm məhsulu tədarük olunub.

Qeyd edək ki, ümumilikdə, muxtar respublikada soyuducu anbarların qurulması və məhsul tədarükü məqsədilə Sahibkarlığın İnkişafı Fondundan sahibkarlara 4 milyon 362 min 840 manat, o cümlədən 2019-cu ilin ötən dövründə bu istiqamətdə sahibkarlara 65 min manat dövlət maliyyə dəstəyi göstərilib.

**✍ Əli CABBAROV**

## İnteraktiv açıq dərs keçilib





***"İnteraktiv açıq dərs" layihəsi çərçivəsində AMEA Naxçıvan Bölməsi ilə muxtar respublikanın ümumtəhsil məktəbləri arasında yeni tədris ilinin ilk dərsi təşkil edilib.***

"Naxçıvan Muxtar Respublikasının biomüxtəlifliyi: flora və faunanın nadir növləri" mövzusunda keçilən dərsdə bölmənin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov bu diyarın biomüxtəlifliyinə daxil olan flora və faunanın nadir növləri, onların müasir vəziyyəti ilə bağlı şagirdlərə ətraflı məlumat verib.

Akademik Azərbaycanın və onun tərkib hissəsi olan Naxçıvanın zəngin bitki örtüyü, heyvanlar aləmi və təbii sərvətlərə malik olduğunu deyərək ekologiyamızın qorunması istiqamətində mühüm işlərin görüldüyünü bildirib. Vurğulanıb ki, biomüxtəlifliyin mühafizəsi və bərpa edilməsində təbii mühit unikallığının, nadir və nəsli kəsilmək təhlükəsi olan növlərin saxlanılmasında xüsusi mühafizə olunan təbiət ərazilərinin rolu olduqca böyükdür.

Tariyel Talıbov muxtar respublikanın coğrafi mövqeyi, təbiəti, flora və faunası, xüsusi mühafizə olunan təbiət əraziləri barədə məlumat verib. Bildirib ki, müxtəlif illərdə ətraf mühitin mühafizəsi, ondan səmərəli istifadə edilməsi istiqamətində mühüm qanun və qərarlar qəbul edilib.

Dərsdə Bioresurslar İnstitutunun əməkdaşları tərəfindən aparılan tədqiqatların nəticələri, eyni zamanda videoslayd vasitəsilə naturadan çəkilmiş fauna və flora növlərinin fotoşəkilləri və videoları şagirdlərin diqqətinə çatdırılıb.

Dərs muxtar respublikanın 200-dən çox ümumtəhsil məktəbində izlənilib.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

## Muxtar respublikada yeni doğulanlarda gözlənilən ömür uzunluğu artmışdır

*Bu gün muxtar respublikada insanların uzunömürlü və sağlam həyat yaşaması istiqamətində mühüm tədbirlər həyata keçirilir. İnsan inkişafı üzrə aparılan uğurlu siyasət, səmərəli məşğulluğun təmin edilməsi, səhiyyə xidmətlərinin düzgün təşkili, keyfiyyətli ərzaq və içməli su təminatı əhali artımına müsbət təsir göstərir.*

Həyata keçirilən tədbirlərin nəticəsi olaraq muxtar respublikada əhalinin sayı 2000-ci ilin sonuna nisbətən 26,1 faiz artaraq 1 iyul 2019-cu il tarixə 458 min nəfərə yaxın olmuşdur. Müqayisə olunan dövrdə 1 yaşadək uşaq ölümlərinin azalması da əhali artımını təmin etmişdir. Belə ki, 2000-ci ildə muxtar respublikada hər 1000 diri doğulan hesabı ilə 1 yaşa qədər ölən uşaqların sayı 11,2 nəfər təşkil etmişdirsə, 2018-ci ildə bu göstərici 2,3 nəfər olmuşdur.

Muxtar respublikada qeydə alınmış 1 yaşa qədər ölən uşaqların say göstəricisi respublikanın digər regionlarının, Böyük Britaniya və Şimali İrlandiyanın Birləşmiş Krallığı, Almaniya, Fransa, İtaliya, Avstriya, Belçika, Yunanıstan, Niderland, Bolqarıstan, Macarıstan, Rumıniya, Slovakiya, Latviya, Litva, Xorvatiya, İspaniya, Bosniya və Hersoqovina kimi ölkələrdəki müvafiq göstəricilərdən azdır.

Əhalinin ölüm səviyyəsinin aşağı düşməsində müşahidə olunan pozitiv tendensiyalar da muxtar respublikada yeni doğulanlarda gözlənilən ömür uzunluğunun artmasına təsir etmişdir. Belə ki, 2000-ci ildə muxtar respublikada



yeni doğulanlarda gözlənilən ömür uzunluğu 70,9 yaş, o cümlədən kişilərdə 68,8 yaş, qadınlarda isə 73 yaş təşkil edirdisə, 2018-ci ilin yekun nəticələrinə görə bu göstərici 78,6 yaş, o cümlədən kişilərdə 76,6 yaş, qadınlarda isə 80,5 yaş səviyyəsində olmuşdur.

Muxtar respublikada qeydə alınmış yeni doğulanlarda gözlənilən ömür uzunluğu göstəricisi respublikanın digər regionlarından və Bolqarıstan, Macarıstan, Rumıniya, Slovakiya, Latviya, Litva, Xorvatiya, Bosniya və Hersoqovina, Monteneqro kimi Avropa ölkələrindəki müvafiq göstəricilərdən çoxdur. Son 15 ildə bəzi Avropa ölkələri üzrə yeni doğulanlarda gözlənilən ömür uzunluğu orta hesabla 3 yaş artdığı halda, Naxçıvan Muxtar Respublikasında bu göstərici 6,3 yaş olmuşdur.

Muxtar respublikada insan amilinə verilən yüksək dəyər, sağlam ailə – sağlam cəmiyyətin qorunub saxlanılması, yeni doğulanların sağlam mühitdə böyüməsi istiqamətində həyata keçirilən dövlət siyasəti bundan sonra da demoqrafik göstəricilərin pozitiv meyilliliyini təmin edəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**



27 sentyabr Turizm İşçiləri Günüdür

# Naxçıvan turizm mərkəzinə çevrilir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 1 sentyabr tarixli Sərəncamına əsasən hər il sentyabrın 27-si ölkəmizdə "Turizm İşçiləri Günü" peşə bayramı kimi qeyd olunur.***

Təbii-coğrafi baxımdan əlverişli mövqedə yerləşən Azərbaycanda turizmin inkişafı üçün geniş imkanlar vardır. Respublikamızda turizmin inkişafı xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz ölkəmizə hər iki rəhbərliyi dövründə bu sahənin inkişafını diqqətdə saxlamışdır. Ötən əsrin 70-ci illərində Azərbaycanda turizm təşkilatları və ekskursiya bazalarının geniş şəbəkəsi yaradılmış, müasir mehmanxanalar, ictimai əyləncə obyektləri inşa olunmuşdur. Müstəqillik illərində də ulu öndər bu sahənin inkişafını diqqətdə saxlamış, dövlət turizm siyasətinin tənzimlənməsi sahəsində mühüm hüquqi baza yaradılmış, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur.



Ümummilli liderimizin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də turizmin inkişafını ölkə iqtisadiyyatının vacib sahələrindən biri kimi daim diqqət mərkəzində saxlayır. Son illərdə ölkəmizin turizm potensialının beynəlxalq aləmdə tanıdılması istiqamətində, habelə turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Ölkə başçısının imzaladığı sərəncamlar, qəbul edilən dövlət proqramlarının uğurlu icrası Azərbaycanı dünyada turizm ölkəsinə çevirmişdir. 2011-ci ilin "Turizm ili" elan edilməsi isə respublikamızda bu sahənin inkişafına göstərilən diqqətin daha bir ifadəsi olmuşdur. Son illər ölkəmizin turizm potensialının beynəlxalq aləmdə tanıdılması istiqamətində, habelə turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi sahəsində məqsədyönlü tədbirlər həyata keçirilir. Azərbaycanın bütün bölgələrində yeni turizm obyektləri, yay-qış turizm kompleksləri, mehmanxanalar inşa olunmuş, mədəni-tarixi qoruqlar yaradılmışdır.

Naxçıvan Muxtar Respublikasının da geniş turizm potensialı vardır. Muxtar respublikamızın rəngarəng landşaftı, fauna və florası, mineral bulaqları, müalicə mərkəzləri, qədim tarixi, mədəniyyət və təbiət abidələri, mövcud sabitlik, ekoloji cəhətdən təmiz qida məhsulları və müasir infrastruktura malik olan yaşayış məntəqələri burada turizmin bir çox növünün inkişafına zəmin yaradır. 200-dən çox mineral su bulağı, 400-ə qədər böyük və kiçik çayı olan Naxçıvan Muxtar Respublikasında Azərbaycanın nadir fauna və florası məskunlaşmışdır. Ərazidə olan flora və faunanın nadir növləri Naxçıvan Muxtar Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş və xüsusi mühafizəyə alınmışdır. Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, Arazboyu, Ordubad və Arpaçay Dövlət Təbiət yasaqlıqları hesabına xüsusi mühafizə olunan təbiət əraziləri muxtar respublika ərazisinin 28 faizini təşkil edir. Muxtar respublikanın zəngin təbiəti və onun qorunması sahəsində həyata keçirilən tədbirlər turizmin bir çox növünün inkişafına şərait yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə son illər qədim diyarın tarixi-mədəni irsinin tanıdılması, müalicə mərkəzlərinin yenidən qurulması, həyata keçirilən abadlıq-quruculuq işləri turizmin inkişafına təkan vermiş, muxtar respublikaya gələn turistlərin sayı ilbəil artmışdır. Bu gün muxtar respublikanın ən ucqar dağ kəndlərinə belə, rahat asfalt yollar salınmış, su xətləri çəkilmiş, müasir infrastruktur obyektləri tikilmiş, fasiləsiz təbii qaz, elektrik enerjisi, rabitə xidməti və sürətli internet istifadəyə verilmişdir. Qədim diyarın Biçənək, Kükü, Ağbulaq, Nursu, Keçili, Xanağah, Dırnıs, Nəsirvaz, Bist, Tivi, Şahbulaq, Gümüşlü, Ərəfsə və başqa yaşayış məntəqələrində kənd yaşıl turizminin inkişafı üçün geniş imkanlar mövcuddur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması haqqında" Sərəncamı isə dayanıqlı turizm sektoru formalaşdırmaqla yanaşı, turistlərin bütün xidmətləri kompleks şəkildə istehlakına zəmin yaradacaqdır. Hazırda tikintisi davam edən Ağbulaq Xizək Mərkəzi muxtar respublikada qış turizminin inkişafına mühüm töhfə verəcək, yeni turizm növlərinin formalaşmasına gətirib çıxaracaqdır.

Naxçıvan Muxtar Respublikasının tarix-mədəniyyət abidələri ilə zənginliyi turistləri bu diyara cəlb edən əsas amillərdəndir. Ali Məclis Sədrinin müvafiq sərəncamına uyğun olaraq muxtar respublikada 1200-dən çox tarixi abidə pasportlaşdırılaraq qeydiyyata alınmışdır. 70-ə yaxın tarix və mədəniyyət abidəsi bərpa olunmuşdur. Son illər Möminə xatın türbəsi bərpa edilmiş, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində yenidənqurma işləri aparılmış, Nuh Peyğəmbərin məzarüstü türbəsi, muxtar respublika ərazisindəki buzxanalar, Naxçıvan şəhərindəki İmamzadə Kompleksi, "Came" məscidi, Zaviyə mədrəsəsi, İsmayılxan hamamı, Naxçıvanqala, Xan sarayı, Şərur rayonunun Yengicə kəndindəki Şərq hamamı, Culfa rayonundakı Xanəgah Abidə Kompleksi, Əlincəqala, Gülüstan türbəsi, Qazançı körpüsü, Ordubad rayonundakı Aza körpüsü, Qeysəriyyə, Kəngərli rayonundakı Qarabağlar Türbə Kompleksi, Babək rayonundakı Nehrəm İmamzadəsi və digər tarixi abidələr bərpa olunmuşdur. Hazırda Naxçıvan şəhərindəki Yusif Küseyir oğlu türbəsi və Ərəfsə kəndindəki qədim körpü bərpa olunur.









Aparılan abadlıq və quruculuq işləri muxtar respublikada turizmin inkişafı üçün geniş üfüqlər açmışdır. Duzdağ Fizioterapiya Mərkəzində tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən xəstələr üçün müasir şərait yaradılmışdır. Bu il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı müalicə turizminin inkişafı istiqamətində atılmış ən mühüm addımlardandır. Darıdağ Arsenli Su Müalicəxanası da müalicə turizmi sahəsində böyük imkanlara malikdir. Hazırda tikintisi davam edən Darıdağ arsenli su müalicə və istirahət kompleksi bu şəfalı suyun müalicəvi xüsusiyyətlərindən ən səmərəli şəkildə istifadəyə şərait yaradacaqdır. Həmçinin "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi, pirlər, imamzadələr, qədim məscidlər muxtar respublikada dini və ziyarət turizminin, zəngin bitki örtüyü isə herbari turizminin inkişafına hərtərəfli şərait yaradır.

2016-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisində turizmin inkişafı ilə bağlı müşavirənin keçirilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamına əsasən "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın qəbul olunması turizmin inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Ali Məclis Sədrinin 2018-ci il 23 aprel tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin yaradılması isə bu sahədə dövlət idarəçiliyinin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Cari ilin 23 sentyabrından etibarən Turizm Departamentinin fəaliyyəti tarixi binada təmin edilmiş, müasir standartlara cavab verən maddi-texniki baza yaradılmışdır. Həmçinin departamentin nəzdində Milli Dəyərlər Muzeyi fəaliyyətə başlamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Bu gün muxtar respublikanın turizm potensialının artırılması istiqamətində lazımi işlər görülür. Tarixi abidələrin bərpası və milli dəyərlərimizin qorunub yaşadılması turizmin inkişafına mühüm töhfə verir. Muxtar respublikanın turizm potensialının tanıdılması və təbliği məqsədilə yaradılmış Turizm Departamentinin nəzdində Turizm-İnformasiya Mərkəzi, "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi və Milli Dəyərlər Muzeyi fəaliyyət göstərir. Turizm Departamenti və Milli Dəyərlər Muzeyi Naxçıvan şəhərinin qədim tarixi binasında, Turizm-İnformasiya Mərkəzi Zaviyə-Mədrəsə binasında, "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi isə bərpa olunmuş qədim Buzxanada yerləşir. Bütün bunlar muxtar respublikada turizm potensialının düzgün təbliğinə hesablanmışdır. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, muxtar respublikaya turist təşviqi daha da artırılmalıdır".***

Turizmin inkişafı yüksək səviyyədə qurulan infrastrukturla bağlı olduğu kimi, həm də sabitliklə bağlıdır. Bu iki amilin muxtar respublikamızda mövcudluğu, qədim diyarımızın cinayətsiz region kimi tanınması turistlərin muxtar respublikaya gəlməsi üçün daha bir üstünlük yaradır. Naxçıvanın beynəlxalq tədbirlərə, idman yarışlarına ev sahibliyi etməsi təcrübəsi də vardır. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması və ölkəmizin Gənclər Paytaxtı seçilməsi turizm imkanlarımızı nümayiş etdirmək baxımından mühüm əhəmiyyətə malik olmuşdur. Bu sahədə görülən işlərin nəticəsidir ki, cari ilin 8 ayında muxtar respublikamıza 250 minə yaxın turist gəlmişdir.

Turizm sahəsində kadr hazırlığı mühüm məsələlərdəndir. Muxtar respublikada bu amil diqqətdə saxlanılır. Hazırda Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərində Turizm və otelçilik ixtisası üzrə kadr hazırlığı aparılır. Tədris ili ərzində tələbələrlə mütəmadi görüşlər keçirilir, Naxçıvan Muxtar Respublikasında yerləşən muzeylərə, tarixi abidələrə, müalicə mərkəzlərinə və xüsusi qorunan təbiət ərazilərinə ekskursiyalar təşkil edilir, təcrübələr və maarifləndirici seminarlar keçirilir.

Muxtar respublikada turizmin inkişafı sahəsində həyata keçirilən tədbirlər, yaradılan şərait qədim diyarın turizm potensialının inkişafı üçün bundan sonra da geniş üfüqlər açacaqdır.

***Naxçıvan Muxtar Respublikası Turizm Departamenti***

## Naxçıvan Muxtar Respublikasının turizm potensialı beynəlxalq sərgidə nümayiş etdirilir



*Türkiyə Respublikasının Van şəhərində ənənəvi olaraq keçirilən "10-cu Van Şərqi Anadolu Beynəlxalq Turizm və Səyahət Sərgisi"nə start verilmişdir.*

16 ölkənin təmsil olunduğu sərgidə ölkəmizi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının, Beynəlxalq Diaspor Mərkəzinin və Naxçıvan Muxtar Respublikasının Turizm Departamentinin dəstəyi ilə bir qrup nümayəndə heyəti təmsil edir. Sərgidə 52 kvadratmetrlik sahədə "Naxçıvan Muxtar Respublikası" stendi qurulmuşdur. Stenddə muxtar respublikada yerləşən tarix-mədəniyyət abidələrinin böyükölçülü fotoşəkilləri nümayiş etdirilir. Quraşdırılmış monitor vasitəsilə diyarımızın turizm potensialı ilə bağlı videoçarxlar sərgi iştirakçılarına təqdim olunur. Həmçinin muxtar respublikanın Turizm Departamenti tərəfindən hazırlanmış Naxçıvan-Qarabağlar, Naxçıvan-Əshabi-Kəhf, Naxçıvan-Əlincəqala, Naxçıvan-Ordubad, Naxçıvan-Ağbulaq Kənd Turizm İstirahət Bölgəsi, Naxçıvan-Gülüstan, Naxçıvan-Duzdağ turist marşrutlarının bukletləri və muxtar respublikanın turist xəritəsi sərgi iştirakçılarına təqdim olunur. "Sirab", "Badamlı", duz və digər Naxçıvan brendi məhsullar beynəlxalq sərgidə nümayiş etdirilir. Turizm Departamentinin əməkdaşları tərəfindən sərgi iştirakçılarına Naxçıvan Muxtar Respublikasının turizm potensialı barədə ingilis və türk dillərində məlumatlar verilir.

29 sentyabr 2019-cu il tarixədək davam edəcək sərgidə "Naxçıvan Muxtar Respublikası" stendinə turistlərin marağı böyükdür.

**Xəbərlər şöbəsi**

# Milli özünüdərkə aparan yol



*Tarixi uzun minilliklərə dayanan hər bir xalqın, hər bir millətin özünün milli dəyərləri vardır. Bu dəyərlər xalqları, millətləri, toplumları digər xalqlardan ayıran ən üstün keyfiyyətlərdir. Milli kökə və milli təmələ sahib olan Azərbaycan xalqının da milli dəyərləri kifayət qədərdir. Himni, gerbi, bayrağı, dili, dini, musiqisi, folkloru, dünya şöhrətli şəxsiyyətləri onun milli-mənəvi genofondunu təşkil edir. Milli ideologiya, milli tarix, dil, mədəniyyət və incəsənət, ədəbiyyat, özünüdərk, bir sözlə, bütün milli keyfiyyətlər bu dəyərlər sisteminə aiddir. Azərbaycan xalqının milli dəyərlərinin qorunub saxlanması ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri ilə bağlıdır. Ulu öndərin bu dəyərlərə verdiyi önəmin mahiyyətini onun bütün çıxışlarında görmək olar:* ***“Milli dəyərlər daim qorunmalı, yaşadılmalıdır, milli dəyərlər bizim varlığımızın əsasıdır. Milli dəyərlər insanın kamilləşməsi, şəxsiyyətin formalaşması üçün milli mentalitetdən qida alaraq zaman-zaman bütün əxlaqi keyfiyyətləri özündə toplayaraq cəmiyyətə vəsiqə alır. Hər xalqın öz adət-ənənəsi var, öz milli dəyərləri var. Biz öz milli dəyərlərimiz, adət-ənənələrimizlə fəxr edirik”.***

Yeni əsrin tələblərinə uyğun olaraq Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında baş verən uğurlu yeniliklər ölkəmizin müstəqil dövlətçilik siyasətinin millilik, vətənpərvərlik, adət-ənənələrə bağlılıq prinsipləri əsasında inkişafına şərait yaradır. Milli dəyər mənəviyyat əsasında inkişaf edir, dəyər alır. Milli dəyərlərin mənəvi dəyərlərlə sintezi milli-mənəvi dəyərlər sistemi yaradır ki, bu da məsələyə kompleks yanaşma tələb edir.

Naxçıvan Muxtar Respublikasında milli ideoloji siyasət dövlətçilik və Azərbaycançılıq ənənələri əsasında inkişaf edir. Bu gün qədim diyarımızda milli dəyərlər sistemli şəkildə araşdırılır, təbliği istiqamətində nəzərəçarpacaq işlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov milli dəyərlərin təbliğini dövlət siyasətinin prioritet istiqaməti kimi belə dəyərləndirir: ***“Bu gün ulu öndərimizin milli dəyərlərimizin yaşadılması ilə bağlı müəyyənləşdirdiyi yol uğurla davam etdirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində müstəqil Azərbaycan və onunla birlikdə milli-mənəvi dəyərlərimiz də dünyada tanınır və qəbul edilir”.***

Ulu öndər Heydər Əliyevin milli dəyərlərin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi istiqamətində miras qoyduğu ənənələrə uyğun bu gün muxtar respublikamızda ardıcıl fəaliyyət planı icra olunur, tarixi sərəncamlar imzalanır. Naxçıvanın milli dəyərlər sistemi yeni dövrün tələblərinə uyğun beynəlxalq mədəni irs siyahısında yeni səhifələr açır.

2012-ci ilin muxtar respublikada “Milli dəyərlər ili” elan olunması haqqında imzalanan tarixi Qərar isə dövlətin mədəni irsə, tarixi köklərə bağlılığını təsdiqləyən tarixi addım kimi əhəmiyyətlidir. Həmin qərarın əhatə etdiyi tədbirlər çərçivəsində artıq neçə illərdir ki, diyarımızda beynəlxalq rəsm, folklor və muğam festivalları, ədəbi-bədii tədbirlər, yaradıcılıq təşkilatlarında müsabiqələr, ailə dəyərlərinin qorunub saxlanılması ilə bağlı seminarlar, milli dəyərlərin əsas daşıyıcısı olan xalq yaradıcılığının müxtəlif sahələri üzrə kurslar təşkil edilir. Uşaq və gənclər xalq sənəti sahələrinə cəlb olunur, “Milli dəyərlərimizi öyrənək və yaşadaq!” rubrikası ilə teleradio verilişləri və qəzet materialları hazırlanır. Aparılan tikinti-quruculuq işlərində milli ornamentlərin tətbiqinə üstünlük verilir, qədim milli musiqi alətlərində ifalara və milli geyimlərimizin təbliğinə diqqət artırılır. Bununla yanaşı, elm, təhsil və mədəniyyət müəssisələrində gənclərə xalçaçılıq, boyaqçılıq, papaqçılıq, misgərlik, dəmirçilik, taxta üzərində oyma kimi qədim xalq sənəti nümunələri öyrədilir. Bədii yaradıcılıq prosesində milli dəyərlərimizin öyrənilməsi və təbliğinə diqqəti artırmaq məqsədilə kitablar, jurnallar, kataloqlar çap edilir, televiziya filmləri hazırlanır. Xalq sənətini yaşadan qrup və dərnəklərin fəaliyyəti bərpa olunur. “Toxucular və xalçaçı qızlar” qrupunun, “Qızıl əllər” dərnəyinin, şifahi xalq ədəbiyyatı nümunələrini toplayan “Elimizin söz boğçası” adlı maraq klublarının fəaliyyəti gənc nəsildə xalq sənətinə marağı artırır.

Görülən mühüm işlərdən biri də muxtar respublikada xalq yaradıcılığı sahələrində fəaliyyət göstərən sənətkarlar barədə məlumat bazasının yaradılmasıdır. Xalq yaradıcılığı və milli dəyərlərin müxtəlif portallarda internet üzərindən təbliği işinə önəm verilir və genişləndirilir.

Hazırda muxtar respublikada misgərlik və şüşə üzərində işləmə sənəti, taxta üzərində oyma və naqqaşlıq sənəti üzrə emalatxanalar, xalçaçılıq, milli musiqi alətlərinin istehsalı və təmiri emalatxanaları fəaliyyət göstərir. Naxçıvan Regional Peşə Tədris Mərkəzində toxucu, xalçaçı, keçəçi, aşpaz köməkçisi və qalayçı peşələri üzrə kurslar təşkil edilir. Naxçıvan şəhərində keramika və dulusçuluq sənəti ilə məşğul olan dulusçuluq emalatxanasında hədiyyəlik gil əşya istehsalının təşkili, əl işlərinin “Xalq yaradıcılığı nümunələri” adlı kataloqa daxil edilməsi həyata keçirilir, sənətin bu növü öyrədilir və təbliğ edilir. Naxçıvanda “Milli mərasimlərimiz”, “Heydər Əliyev və milli dəyərlər”, “Müstəqil dövlətçilik və milli dəyərlər”, “Naxçıvan Muxtar Respublikasında mövcud olan qədim memarlıq abidələrinin bərpasına və qorunmasına dövlət qayğısı”, “Milli dəyərlər və müasir gənclik”, “Müstəqil dövlətçilik və ümummilli dəyərlər” mövzularında elmi konfransların keçirilməsi milli dəyərlərin tədqiqata cəlb olunması və bu sahədə elmi araşdırmaların aparılması baxımından böyük əhəmiyyət daşıyır.

Naxçıvan Mətbuat Şurasının “Milli dəyərlərimizi qoruyaq və yaşadaq” mövzusunda keçirdiyi yaradıcılıq müsabiqələri gənc jurnalistlərin mətbuatda bu mövzularda mütəmadi çıxışına səbəb olur. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin birgə layihəsi əsasında hazırlanan “Yallı” kompakt-diski yallılarımızı təbliğ edir, yaşadır, gələcək nəsillərə ötürür. Milli dəyərləri yaşadan “Naxçıvan tikmələri” adlı kitab isə tikmə sənətimizin müxtəlif növləri haqqında geniş məlumat verir. Tikmə sənəti haqqında Azərbaycan dili ilə yanaşı, ingilis dilində də məlumatlar yerləşdirilən kitabda muxtar respublikada hazırlanmış XIX əsrə və hazırkı dövrümüzə aid müxtəlif tikmə növlərinin fotoları da əks olunub.



Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti nəzdində Milli Dəyərlər Muzeyinin yaradılması isə ötən dövr ərzində görülən işlərin sistemləşdirilməsi, milli dəyərlərimizin yaşadılması, qorunması, gələcək nəsillərə ötürülməsi istiqamətində uzun illər davam edən dövlət siyasətinin tərkib hissəsi kimi mühüm əhəmiyyət daşıyır. Dövlət Bayrağı, Gerbi və Dövlət Himninin mətni, milli geyimlərimiz və qədim məişət əşyalarımız, xalçalar və memarlıq abidələri, adət-ənənələri ilə bağlı çap olunmuş kitab və ensiklopediyaların nümayiş olunduğu muzey vasitəsilə milli dəyərlərin təbliği bundan sonrakı fəaliyyətlər üçün ciddi və əhəmiyyətli mərhələnin əsasını qoyur.

*Əminik ki, muxtar respublikada milli dəyərlər dövlət qayğısı ilə bundan sonra da öyrəniləcək, qorunacaq, yaşadılacaq, tədqiq və təbliğ ediləcək, dünya mədəniyyətinin bir parçası kimi tarixdə öz yerini qoruyub saxlayacaqdır. Ümummilli liderimizin dediyi kimi:* ***“Biz tarixi köklərimizi həmişə iftixar hissi ilə qiymətləndirməliyik və tarixi köklərimizin mənasını dünyaya bəyan etməliyik, yaymalıyıq, təbliğ etməliyik, onunla fəxr etməliyik”.***

**Surə SEYİD**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri***

*Naxçıvan dünya mediasında*

# Bölgəmizin parlayan ulduzu Naxçıvan


GAZETEKARS
Bölgemizin Parlayan Yıldızı : Nahcıvan
Settar Kaya, Nahcıvan gezisi sonrası izlenimlerini kaleme aldı.

Sizə belə bir sual versəm:
*Dağlarını bulud qucan,*
*Daşlarından kəklik uçan,*
*Tarlaları ətir saçan*
*Hansı məkandır?*

Getməyən bilməz əlbəttə. O cahana naxış kimi işlənən qədim Türk yurdu Naxçıvandır. Bunu sözlərlə izah etmək yetməz, getmək, gəzmək, görmək lazımdır…

Sovetlər Birliyinin dağılmasından sonra, ilk dəfə 1994-cü ildə Naxçıvana getmişdim. Gördüyüm mənzərə keçid dönəmində olan bir ölkə üçün normal olsa da, qardaş ölkə xalqının sıxıntı içində yaşaması qəlbimi sızladırdı. İllər sonra, 2010-cu ildə yenidən Naxçıvana gəldiyimdə gördüyüm inkişafdan çox məmnun qaldım. O gün gördüklərimi Türkiyəyə qayıdanda “Naxçıvan möcüzəsi və düşündürdükləri” adlı məqalə ilə ictimaiyyətlə bölüşdüm. Aradan 10 il keçdi. Bu yaxınlarda ailəmlə birlikdə yenidən qədim diyar Naxçıvanı ziyarət etdik. Bu səyahətdə Naxçıvan şəhərinin son bir neçə ildə inanılmaz şəkildə dəyişməsi diqqətimi çəkdi. Dilucu sərhəd qapısından Naxçıvana keçdiyinizdə mərkəzə 80 kilometrlik bir məsafə var. Bu məsafənin hər qarışı ağaclarla, çiçəklərlə bəzədilib. Eyni sistemi muxtar respublikanın digər bölgələrinə səyahət edərkən də görürük. Parklar, qəbiristanlıqlar, rəsmi qurumlar və məktəblərin baxçalarının seyrinə doymaq olmur. Naxçıvanın havası kimi hər yeri tərtəmiz və gözəldir. Ağaca, təbiətə qarşı sevgi və qayğı necə göstərilməlidir? – bunu görmək istəyənlər Naxçıvana gəlsin.

Şəhərin mərkəzinə yaxın yerləşən “Saat Meydanı” çox geniş və fərahdır. Onu əhatə edən sosial obyektlər isə müasir üslubda inşa edilib. Xüsusilə “Saat Meydanı” türk memarlıq sənətinin möhtəşəm bir nümunəsidir.

Şəhərdə nəqliyyat fasiləsiz və nizamla işləyir. Prospekt, küçə və səkilərdə nəqliyyat vasitələri nizamlı şəkildə park edilib. Qovşaqlarda işıqforlar, digər yerlərdə piyada keçidləri mövcuddur və sürücülər yol qaydalarına ciddi şəkildə əməl edirlər. Bütün nəqliyyat vasitələri piyadanı gözləyir, yol verir. Taksilər çox təmiz, sürücülər isə səliqəli formadadırlar.

Muzeylər 10 il əvvəllə müqayisədə xeyli zənginləşdirilib. Xüsusilə Türk dünyasının görkəmli siyasi xadimi Heydər Əliyevin adını daşıyan muzey çox təsirli və diqqətçəkicidir.

Naxçıvan təhsil və səhiyyə sahəsində də böyük uğurlar əldə edib. Orada olanda məktəblər yeni dərs ilinə başladı və biz 5 nömrəli tam orta məktəbin açılış mərasimini izlədik. Müəllimlərin hamısı şagirdlər kimi rəsmi geyimdə idilər. Məktəbin bağı və içi tərtəmiz, insanın ruhuna fərahlıq verirdi. Məktəbin açılışına valideynlərin çiçəklərlə gəlməsi insanların təhsilə verdiyi önəmin göstəricisi idi.

Muxtar respublikada fəaliyyət göstərən xəstəxanalar müasir cihazlarla təchiz olunub. Bizdə olduğu kimi bütün bölmələr eyni binaya yerləşdirilməyib, fərqli bölmələr üçün xüsusi binalar inşa edilib. Mən deyərdim ki, istənilən sahədə bilik və təcrübələrini artırmaq, “Urbanizasiya nədir, müasir bir şəhər necə qurular?” sualına cavab tapmaq istəyənlər xarici ölkələrə yox, məhz Naxçıvana gəlməlidirlər.

Burada milli dəyərlərə hörmətlə yanaşılır. İş yerlərinə xarici yox, məhz milli dildə adlar verilib. Türkiyədə olduğu kimi tanıtım lövhə çirkliliyini Naxçıvanda görə bilməzsiniz. Binaların girişində kiçik və estetik lövhələr sizi gedəcəyiniz nöqtəyə istiqamətləndirir. Naxçıvanı təkcə gündüz görmək kifayət deyil, şəhəri bir də gecə gəzməyinizi tövsiyə edirəm. Hər biri bir sənət əsəri binalar göz zövqünüzə xitab edəcək şəkildə işıqlandırılıb. Tarixi Avropa şəhərləri belə, Naxçıvanın yanında zəif qalır.

Biz səyahətimiz boyunca muxtar respublikanın digər bölgələrinə də getdik, Şahbuzda olduq. Bu bölgə turizm üçün əlverişli məkanlardan biridir. Xüsusilə Batabat yüksəklikdə yerləşdiyinə görə yaylaq turizmi üçün olduqca əlverişlidir. Fikrimcə, gələcəkdə bölgədə, xüsusən də Batabat gölünün ətrafında turizm obyektlərinin tikilməsi bu bölgəni daha diqqətçəkən edəcək. Digər tərəfdən Naxçıvan bölgənin meyvə-tərəvəzinin istehsal olunduğu əsas məkandır, burada yetişdirilən məhsullar tamamilə təbiidir. Naxçıvanın Türkiyədəki turizm şirkətləri ilə möhkəm əməkdaşlıq əlaqələri qurması da gələcəkdə bu bölgəni ölkə turizminin əsas məkanına çevirə bilər.

Sonda gördüklərimdən belə bir nəticəyə gəldim ki, Naxçıvanın blokada şəraitində olmasına baxmayaraq, günü-gündən inkişaf etməsi təqdirəlayiqdir. Türkiyə kimi dostuna qürur, düşmənlərinə isə gözdağıdır.

Fürsətdən istifadə edərək Naxçıvan Muxtar Respublikasının inkişafında göstərdiyi xidmətlərə görə Ali Məclisin Sədri cənab Vasif Talıbovu təbrik edir, ona minnətdarlığımı bildirirəm.

**Səttar KAYA**
***Türkiyənin “İYİ” Partiyasının Qars Vilayəti üzrə keçmiş sədri,Qars Bələdiyyə sədrliyinə namizəd***
***gazetekars.com***
***24 sentyabr 2019-cu il***

# Tədbir keçirilib

*Babək rayonunun Kərimbəyli kəndində “Reproduktiv sağlamlıq və ailə dəyərləri” mövzusunda keçirilən tədbiri rayon İcra Hakimiyyəti başçısının müavini Səbinə Abbasova açaraq belə tədbirlərin əhəmiyyətindən danışıb.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək bildirib ki, aparılan təhlillərə görə Babək rayonunda 27 min 137 uşaq vardır. Onlardan 391-nin sağlamlıq imkanları məhduddur. Bu da ümumi uşaqların 1,44 faizini təşkil edir. Muxtar respublika üzrə 1847 sağlamlıq imkanları məhdud uşaq vardır ki, bu uşaqların da 21,1 faizi Babək rayonunun payına düşür. Rayonun Kərimbəyli kəndi üzrə 9 sağlamlıq imkanları məhdud uşaq var. Onlardan 7-si anadangəlmə, 2-si isə qazanılmadır.

“Qadınlarda virus hepatitlərinin fəsadları, bətndaxilindəki uşağın xəstəlikləri və onlarla mübarizə yolları” mövzusunda isə tibb elmləri üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva çıxış edərək Babək rayonu üzrə doğulan sağlamlıq imkanları məhdud uşaqların əsas xəstəliklərinin yaranması səbəbləri barədə slayd vasitəsilə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Mədəniyyətin inkişafına qayğı insanlara qayğıdır

***Böyük və şərəfli bir nəslin adını özündə yaşadan Kəngərli rayonu bu gün digər bölgələrimiz kimi özünün yeni inkişaf mərhələsindədir. Bir faktı xüsusi qeyd etmək lazımdır ki, rayon mərkəzi Qıvraq qəsəbəsi və 10 kənddən ibarət olan Kəngərlinin bütün yaşayış məntəqələrində kompleks quruculuq tədbirləri həyata keçirilib, tarixi abidələrə yeni həyat bəxş olunub, əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində xeyli iş görülüb.***



Onu da qeyd edək ki, rayonda istifadəyə verilən bəzi obyektlərin açılış mərasimlərində ölkə başçısı cənab İlham Əliyev iştirak edib, həyata keçirilən tədbirlərə görə razılığını bildirib. Bütün bunlar isə rayon sakinləri tərəfindən onlara göstərilən böyük dövlət qayğısı kimi dəyərləndirilib və kəngərlilərin qurub-yaratmaq əzmini yüksəldib. Bunu rayonun ictimai həyatında mühüm rol olan mədəniyyət işçilərinin fəaliyyətində də görmək olar.

Rayon Mədəniyyət Şöbəsinin müdiri Məhərrəm Əliyevlə söhbət zamanı öyrəndik ki, bu gün Qıvraq qəsəbəsində bir Mədəniyyət Sarayı, Böyükdüz, Qarabağlar, Qabıllı, Şahtaxtı, Çalxanqala kəndlərində mədəniyyət evləri, Yurdçu, Xıncab, Xok, Təzəkənd yaşayış məntəqələrində klub, Mərkəzləşdirilmiş Kitabxana Sisteminin tərkibində uşaq kitabxanası və 11 kənd filialı fəaliyyət göstərir. Rayon mərkəzində və Çalxanqala kəndində yaradılmış uşaq musiqi məktəbləri bu sahədə istedad və bacarığı olan uşaqları öz ətrafına cəlb edib.





Tarix-Diyarşünaslıq Muzeyi bu qədim yurd yerinin ulu keçmişindən qalan yadigarları özündə hifz etməklə, qapıları həmişə Kəngərli sakinlərinin və buraya gələn qonaqların üzünə açıq olan mədəniyyət müəssisəsidir.

Xalqımızın tarixində mühüm rol oynayan Şahtaxtinskilərə böyük hörmət və ehtiram əlaməti olaraq yaradılmış Şahtaxtinskilər Muzeyi də həmişə ziyarətçilərlə dolu olur.

İlkinliyi qorunub saxlanılmaqla yenidən qurulan Qarabağlar Türbə Kompleksi isə Azərbaycan memarlıq məktəbinin ən gözəl inciləri sırasındadır. Bu möhtəşəm abidəni ziyarət etməyə dünyanın hər yerindən qonaqlar gəlir.

Şöbə müdirinin sözlərinə görə, ayrı-ayrı mədəniyyət müəssisələrində ansamblar, musiqi qrupları yaradılıb. Onlar rayonun və muxtar respublikanın mədəni-kütləvi tədbirlərində fəallıq göstərirlər. Bu baxımdan Mədəniyyət Sarayının nəzdində yaradılmış “Kəngər” instrumental ansamblı, qızlardan ibarət “Gülüm, hey” folklor qrupu, “Yallı”, Şahtaxtı kənd mədəniyyət evinin uşaqlardan ibarət “Yallı”, Çalxanqala kənd uşaq musiqi məktəbinin “Sazçalanlar” və “Nağaraçalanlar” ansamblları, Qabıllı kənd mədəniyyət evinin dram dərnəyi rayon sakinlərinin asudə vaxtlarının səmərəli təşkilinə çalışır, tez-tez əsgərlərin qonağı olurlar. Cari ilin 9 ayı ərzində bu kollektivlərin rayonda keçirilən bütün mədəni-kütləvi, həmçinin bayram, əlamətdar günlərlə bağlı təşkil olunan tədbirlərdə iştirakı təmin edilib, onların rəngarəng repertuarlarla çıxışları rəğbətlə qarşılanıb. Qeyd edək ki, bəhs olunan dövrdə 80-dən çox belə tədbir keçirilib.

Gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanmış “Oxunması zəruri olan kitablar haqqında” 2017-ci il 28 avqust tarixli Sərəncama əsasən bütün klub, kitabxana və mədəniyyət evlərində, uşaq musiqi məktəblərində sərgilər təşkil olunub. “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil olan nümunələrin bir çoxunun müzakirəsi keçirilib və qrafik əsasında müzakirələr davam etdirilir. Bu günədək “Nizaminin hikmət nəsihətləri”, N.Tusinin “Əxlaqi-Nasiri”, M.S.Ordubadinin “Qılınc və qələm”, uşaq ədəbiyyatından “Təmsillər”, Y.Balasaqunlunun “Qutadqu bilik”, T.Drayzerin “Dahi”, C.Londonun “Həyat eşqi” və başqa kitabların müzakirələri keçirilib. Müzakirələrdə ona nail olmağa çalışılır ki, insanın daxili-mənəvi aləminin zənginləşdirilməsində mühüm vasitə olan mütaliə mədəniyyəti formalaşdırılsın.

Məhərrəm Əliyev onu da diqqətimizə çatdırdı ki, rayonda fəaliyyət göstərən muzeylərdə açıq dərslərin, muzey günlərinin keçirilməsi, sərgilərin və sair tədbirlərin təşkil olunması diqqət mərkəzində saxlanılıb. Mədəniyyətimizin böyük himayədarı, ulu öndər Heydər Əliyevin ad və anım günləri bütün mədəniyyət müəssisələrində yüksək səviyyədə qeyd olunub, sərgilər təşkil edilib.

Muxtariyyətimizin 95 illiyi ilə bağlı keçirilən tədbirlər də yaddaqalan olub.

Qeyd edək ki, hər il olduğu kimi, bu il də Azərbaycan Dili və Əlifbası Günü, Azərbaycan Milli Kino Günü, Tarixi Abidələrin Mühafizəsi Günü, Beynəlxalq Muzeylər Günü, Ümumdünya Kitab və Müəllif Hüquqları Günü və digər əlamətdar və bayram günləri ilə əlaqədar keçirilən tədbirlərdə mədəniyyət işçiləri ilə yanaşı, rayon ziyalılarının, fəal kitabxana oxucularının, mütaliə həvəskarlarının da iştirakı təmin edilib. Bu isə həmin mədəniyyət müəssisələrinə ziyarətçilərin gəlişini xeyli artırıb. Belə ki, ilin ötən dövrü ərzində Tarix-Diyarşünaslıq Muzeyini 426, Şahtaxtinskilər Muzeyini 577, Qarabağlar Türbə Kompleksini isə 4689 nəfər ziyarət edib. Bunlardan 363 nəfəri əcnəbi vətəndaş olub. Ekskursiyaların təşkilinə də ciddi önəm verilməsinin nəticəsidir ki, 9 ay ərzində adıçəkilən mədəniyyət müəssisələrinə təşkil edilən belə tədbirlərin sayı 120-ni keçib.

Muzeylərə yeni tapılmış eksponatların təqdim olunması isə davamlı xarakter alıb. Bu ünvanlara gələn insanlara göstərilən xidmətin səviyyəsini yüksəltmək üçün görülən tədbirlər davam etdirilib, keçirilən seminar-treninqlərdə muzey bələdçilərinin iştirakı təmin olunub.

İlin ötən dövrü ərzində Mərkəzləşdirilmiş Kitabxana Sistemi və kənd kitabxana filiallarında bir sıra tədbirlər keçirilib. Nağıl, mütaliə günləri, yubiley tədbirləri, kitab təqdimatlarında oxucular fəallıq göstərirlər.

Rayonun musiqi məktəblərinin kollektivləri də öz işlərini günün tələbləri səviyyəsində qurmağa çalışırlar. Tədrisin keyfiyyətini yüksəltmək məqsədilə ustad dərslərin keçilməsi, hesabat konsertlərinin təşkili diqqətdə saxlanılır. Rayonda keçirilən bütün mədəni-kütləvi tədbirlərdə məktəblərdə yaradılmış musiqi kollektivlərinin çıxışları təşkil olunur. Onu da qeyd edək ki, Qıvraq Qəsəbə Uşaq Musiqi Məktəbinin şagirdləri “Lira” intellektual oyununda fəallıq göstəriblər.

Bu gün rayon mədəniyyət müəssisələrinin qazandıqları uğurlar, şübhəsiz ki, muxtar respublikada bu sahənin inkişafına göstərilən qayğı ilə bağlıdır. Mədəniyyətə qayğı isə insanlara qayğıdır. Əminik ki, bunu unutmayan mədəniyyət işçiləri qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində bundan sonra da fəallıq göstərəcəklər.

**Muxtar MƏMMƏDOV**

***Bu il Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının yaradılmasının 60 illiyi tamam olur.***

# Yubiley tədbiri olub

Bu münasibətlə sentyabrın 26-da Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natavan Qədimova çıxış edərək bildirib ki, 1959-cu ilin sentyabr ayında yaradılan Naxçıvan Dövlət “Araz” Mahnı və Rəqs Ansamblı fəaliyyətə başladığı gündən Azərbaycanın bütün bölgələrində, Orta Asiya, Qafqaz ölkələrində qastrollarda olur, çıxışları ilə dinləyicilərin rəğbətini qazanır. Muxtar respublikada gənc kadrların yetişməsində “Araz” Dövlət Mahnı və Rəqs Ansamblının böyük xidmətləri olub. Ansambl ətrafına toplaşdığı istedadlı musiqiçilərin uğurlu fəaliyyəti nəticəsində kifayət qədər böyüyüb, professional ifaçılıq qabiliyyətinə görə mükəmməl kollektivə çevrilib.





Qeyd edilib ki, 1983-cü ildə həmin ansamblın bazası əsasında bugünkü Naxçıvan Dövlət Filarmoniyası yaradılıb. İlk illərdə burada Xalq Çalğı Alətləri və Kamera orkestrləri, eləcə də Mahnı və Rəqs Ansamblı fəaliyyət göstərib. 2010-cu ildə xor kollektivi, 2012-ci ildə isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin yaradılması haqqında” Sərəncamı ilə filarmoniyanın Estrada Orkestri yaradılıb. Bu gün filarmoniyada 7 professional kollektiv fəaliyyət göstərir.

Filarmoniyanın bu günədək keçdiyi inkişaf yolundan da danışan nazir qeyd edib ki, filarmoniya Azərbaycanın müxtəlif bölgələrində və dünyanın bir neçə ölkəsində keçirilən mədəni tədbirlərdə, həmçinin muxtar respublikada təşkil edilən dövlət səviyyəli konsertlərdə uğurlu çıxışlar edib. Buradakı yaradıcı kollektivlər milli-mədəni dəyərlərimizin, yallılarımızın, xalq mahnılarının geniş vüsət almasına çalışaraq layiqli sənət töhfələri ilə musiqisevərlərin rəğbətini qazanıb.

Bildirilib ki, Naxçıvan Dövlət Filarmoniyasına gənc kadrların cəlbi də daim diqqətdə saxlanılır. Muxtar respublikada istedadlı gənclərin ortaya çıxarılmasında, onların ixtisasları üzrə təkmilləşməsində və gələcəkdə həmin gənclərin şəxsində peşəkar musiqi sənətinin yaşadılmasında filarmoniyanın xidmətləri böyükdür.

Nazir deyib ki, mədəniyyətin bütün sahələri kimi, Naxçıvan Dövlət Filarmoniyasının da professional musiqi kollektivi kimi formalaşmasına və fəaliyyətini uğurla davam etdirməsinə dövlətimiz tərəfindən daim qayğı göstərilir. Bu mədəniyyət müəssisəsinin maddi-texniki bazası daim möhkəmləndirilir, kollektivlər üçün lazım olan geyim dəstləri, avadanlıqlar və musiqi alətləri alınır.

Filarmoniyanın üzvlərinin əməyi də dövlətimiz tərəfindən həmişə yüksək qiymətləndirilib, burada fəaliyyət göstərən 2 nəfər “Xalq artisti”, 9 nəfər “Azərbaycan Respublikasının Əməkdar artisti”, 3 nəfər “Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi”, 20 nəfər “Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti”, 4 nəfər “Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi” fəxri adlarına, 25 nəfər Prezident mükafatına layiq görülüb. Həmçinin kollektiv üzvlərindən 2 nəfər “Tərəqqi” medalı ilə təltif edilib.

Vurğulanıb ki, Naxçıvan Dövlət Filarmoniyası bu gün muxtar respublikanın aparıcı mədəniyyət ocaqlarından biri kimi qədim Naxçıvan diyarında həm mədəniyyətimizin təbliği və inkişafında, həm də gənc istedadların aşkar edilərək peşəkar musiqi sənətinə cəlb edilməsində müstəsna rola malikdir.

Sonda Natavan Qədimova yubiley münasibətilə filarmoniyanın bütün üzvlərini, həmçinin musiqisevərləri təbrik edib, kollektivə yaradıcılıq uğurları arzulayıb.

Sonra filarmoniyanın kollektivləri geniş konsert proqramı ilə çıxış ediblər. Konsertdə Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının, rəqs qrupu və xor kollektivinin, filarmoniyanın solistlərinin ifaları alqışlarla qarşılanıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Fotomüsabiqə keçirilib

***Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda gənclər arasında “Naxçıvanın turizm imkanları” mövzusunda fotomüsabiqə keçirilib.***

Tədbirdə Gənclər və İdman Nazirliyinin əməkdaşı Ayaz Cabbarov, sənətşünas Nizami Alıyev, Rəssamlar Birliyinin üzvü, fotoqraf Araz Xudiyev çıxış edərək keçirilən müsabiqələrin muxtar respublikanın turizm məkanlarının tanıdılmasında, yaradıcı gənclərin istedadlarının üzə çıxarılmasında böyük rol oynadığını bildiriblər.

Müsabiqəyə 80 müəllifin 118-dən çox fotoşəkli təqdim olunub. Sonda qaliblər mükafatlandırılıblar.

Gənclər və İdman Nazirliyinin, Rəssamlar Birliyinin və Yeni Azərbaycan Partiyası Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilən müsabiqədə 40 gənc iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

**Bildiriş**

“Avto Lider” Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN:0200852361) hüquqi adı dəyişdirilərək “Lider az” Məhdud Məsuliyyətli Cəmiyyətə çevrilmişdir.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 655